# ORXAN FİKRƏTOĞLU HAQQINDA GÖRKƏMLİ ŞƏXSLƏRİN FİKİRLƏRİ

Həm ata, həm də oğul öz fəaliyyətlərində bir növ "işıqçı" rolunu oynayıblar. Belə ki, Orxan Fikrətoğlunun kino sahəsindəki fəaliyyəti də məhz "Ötən ilin son gecəsi" filmində işıqçı kimi başlayıb və o, bu işığı sonradan öz qələminə, ekran əsərlərinə daşıyıb.

***

Orxan Fikrətoğlunun yaradıcılığında Şirvan şairlərinə xas olan dərin düşüncə sistemi öz əksini tapıb və o, fəaliyyətinin bütün mərhələlərində daim yeniliklər axtarışında olub.

**Nizami Cəfərov,**
**Akademik**

"Ölü mətn" hər şeydən öncə böyük bir metaforadır - millətin taleyini, gələnəklərini, onu milli edən özəllikləri içinə yığıb daşdandıran, bəzən bütün bu əlamətləri var gücü ilə içinə çəkən, mətnin müxtəlif yerlərində yay kimi yığılıb açılan və hər dəfə də yeni-yeni həqiqətləri üzə çıxaran, bu həqiqətlər fonunda millətin düşüncə tərzi ilə şərtlənən mətləbləri açıqlayan bir nəsnədir.

***

Orxan Fikrətoğlu imzası artıq neçə illərdir ki, oxucuların yaddaşında sabit və illər keçdikcə mahiyyətcə yeniləşən bir obraz yaradıb. Orxan, bəri başdan deyim ki, öz üslubunu hiss edən, buna görə də, hər şeydən öncə özünü qurub-yaratmağa çalışan bir nasirdir. Orxanın hər bir yazısında onun ədəbiyyat haqqında düşüncəsi dayanır, mətn boyunca qabarıqlaşır, onun hadisələrə bir az hissi-emosional, həm də dərindən baxdıqda idrakla duyğunun vəhdəti bucağından baxmaq cəhdləri yaratdığı insan obrazlarına orijinallıq və qəribəlik aşılayır.

**Cavanşir Yusifli,**
**professor**

Mən Orxan Fikrətoğlunu həmişə qaravəlli stixiyasına, folklor yumoruna, qroteskə bağlı yazıçı kimi tanımışam və sevmişəm. Həmişə bu stixiyanın davamını arzulamışam. Orxan Fikrətoğlu yaradıcılığı da məhz absurdluğu pritça səviyyəsində, yığcam və lakonik şəkildə yazması ilə diqqəti cəlb edir. Düşünürəm ki, bu gün (elə həmişə!) lakonik, pritçavari yazmaq özü əxlaq məsələsidir. Qrotesk-qaravəlli yazıçıya gerçəkliyin fantastik obrazlılığını yaratmağa imkan verir. Qrotesk obrazların deformasiyasını tələb edir (Və nədənsə mənə elə gəlir ki, Orxan şüuraltı dağıdıcı qroteskə meyillidir). Alogizm, paradoksallıq absurdluq poetikasının əsasıdır.

**Kamal Rüstəm,**
**professor**

Orxan Fikrətoğlunun hekayə və romanlarında Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev və Üzeyir Hacıbəyli tərzinin, ironiyasının davamı hiss olunur. Orxan Fikrətoğlu 21-ci əsrin yazıçısıdır.

**Sabir Rüstəmxanlı,**
**Xalq şairi**

Orxan Fikrətoğlunun bir jurnalist və yazıçı kimi orjinal deyim tərzi, şərh üsulu, söz oynatmaq, sözə əlavə məna tutumu vermək istedadı Tanrı vergisidir. Onun nəsr dili xüsusi tədqiq olunmalıdır. Burada obrazlılığın çəkisi elədir ki, bəzən özünü poeziya aləmində hiss edir, sözün yeni məna tutumu ilə qarşılaşırsan.

Orxan Fikrətoğlunun nəsri müasir ədəbiyyatımızda hadisədir. Onun nəsri hazırlıqlı, düşünən, bədii sözü duyan oxucu üçündür. O. yeni qəhrəman, yeni ideal axtarışlarındadır.

**Şirindil Alışanlı,**
**professor**

Orxan Fikrətoğlunun ən müxtəlif məzmunlu yazılarında da yumor var. Odur ki, fikirləri əvvəlcə insanlarda təbəssüm yaradır, ancaq az sonra bu, əslində ironik münasibəti başa düşənlər üçün düşüncə qaynağına çevrilir. Hiss olunur ki, onun yumoru incə müşahidələrin nəticəsidir. Bütün bu müsbət yaşantıları bizə Orxan Fikrətoğlunun hekayələri yaşadır. Onlar bəzən duyulası dərəcədə qısa olsalar da, məzmun yükünə görə tutumlu və korşalmaqda olan yaddaşları dirçəltmək gücündədir. Qənaətimizcə, bu hekayələrdə hadisələrin bu qədər qabarıq göstərilməsi yəqin ki, Orxan Fikrətoğlunun kinoçuluğundan irəli gəlir. Əslində o, hekayə və povestlərində ədəbiyyatla kinematoqrafiyanı uğurla birləşdirməyə nail olub.

Orxan Fikrətoğlu potensialından hələ də tam istifadə edə bilmədiyimiz yaradıcılardandır. Nə vaxtsa gecikdiyimizi etiraf etməli olsaq, buna görə onu yox, bizi qınayacaqlar. Gəlin tələsək. Sağlığında qiymət verməyə qızırqansaq da, heç olmazsa canındakıları çıxarmağa çalışaq. Bunu ki, bacarırıq...

**Ziyadxan Əliyev,**
**Əməkdar incəsənət xadimi**

Orxan Fikrətoğlu haqqında danışmaq, onun yaradıcılıq dünyasını təhlil etmək olduqca çətindir. Bu imzanı tam dərk etmək və onun haqqında dolğun danışmaq üçün mütləq şəkildə dünyanın bir çox qlobal ədəbi cərəyanlarından xəbərdar olmaq lazımdır.

**Azər Turanın,**
**filologiya üzrə fəlsəfə doktoru**

Orxan Fikrətoğlunun polifonikliyi ilə seçilən, geniş spektrli yaradıcılığı müstəqillik dövrü Azərbaycan ədəbiyyatında moderndən postmodernizmə keçidin, postmodernin milli variantının tədqiqi baxımından olduqca önəmlidir.

***

Orxan Fikrətoğlu yaradıcılığı hər zaman ədəbi və teatr tənqidinin, kinoşünaslığın diqqət mərkəzində olmuşdur. Yazıçının bədii əsərləri zaman-zaman ədəbi tənqiddə rezonans doğurmuş, Şirindil Alışanlının, Nərgiz Cabbarlının, Cavanşir Yusiflinin, İradə Musayevanın, Elnarə Akimovanın və digər ədəbiyyatşünasların tədqiqatlarında onun əsərlərinin özünəməxsusluğu, yazı manerasının, təhkiyəsinin yeniliyi vurğulanmışdır.

**Elnarə Qaragözova,**
**filologiya üzrə fəlsəfə doktoru**

Orxan Fikrətoğlu ədəbiyyata 80-ci illərdə gəlsə də, yaradıcı potensialı, yeni üslubi imkanları müstəqillik illərində meydana çıxmış qələm sahibidir. Xüsusilə, son bir neçə ilin ən gözəl hekayələri, kinopovestləri həm də onun qələmində sərgilənir. Oxunmalı, layiqli mətnlərin az halda ərsəyə gəlməsi şikayətini səsləndirməyi sevən bizlər üçün bu mətnlər təsvir predmeti, ideya ifadəsi və düşüncə zəmini olmaqla nəsrin ölçülərinə uyğunluğu ilə meydandadır.

**Elnarə Akimova,**
**filologiya üzrə fəlsəfə doktoru**

Qeyd etməliyəm ki, Orxan Fikrətoğlunun (əvvəllər atası, sevimli şairimiz Fikrət Sadığın soy adı ilə Sadıqov idi) bir yazıçı, kinosenarist, rejissor, satira ustası kimi formalaşması və təkamülü gözümün qarşısından keçir. İyirmi il Vətəndən uzaqlarda, diplomatik xidmət sahəsində çalışdığım illərdə də əvvəllər olduğu kimi, ölkəmizdəki ədəbi prosesləri izləməyə çalışırdım, ara-sıra Orxan Fikrətoğlunun əsərlərini də oxuyurdum. Qeyd edilməlidir ki, hələ keçən əsrin 90-cı illərində bu istedadlı gəncin yaradıcı fəaliyyəti Ulu öndər Heydər Əliyevin diqqətini cəlb etmiş, Orxan 1998-ci

ildə gənc yazar kimi Prezident təqaüdünə layiq görülmüşdü. Bu, onun timsalında ölkə Prezidentinin yaradıcı Azərbaycan gəncliyinə verdiyi dəyərin göstəricisi idi.

**Eynulla Mədətli,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, fövqəladə və səlahiyyətli səfir**

Yazıçı az sözdən istifadə edərək, oxucuda müsbət təəssürat, xoş ovqat yarada bilər. Yazıçı uzun cümlələr, ifadələr və obrazlardan istifadə edərək də eyni məqsədə nail olar. Orxan Fikrətoğlu birinci qismə aid nasirlərdəndir. O.Fikrətoğlu hekayələr, povestlər və kinossenarilərinin toplusu olan "Vaxt" kitabında postmodernizm ruhunu milli çalarlarla verə bilib. O.Fikrətoğlunun irreal dünyası insana bəzən o qədər doğma olur ki, elə bilirsən, yazıçının fantaziyasından doğan əsərlər elə həyatımızda baş verən hadisələrin təsviridir.

**Alpay Azəroğlu,**
**nasir**

Xarakterli adamdır. Başqalarına həsəd aparmağı xoşlamır, həmişə öndə olmağa çalışır. Münasibətlərində həvəsləndirici və idarəedici xüsusiyyətlərə malikdir, əməkdaşlıqda özünü güclü şəkildə təsdiq etməyi bacarır. Tükənməz enerjisi var. Özünə güvənən, iradəli və inadkardır. Xeyirxahlığına, əliaçıqlığına, mərhəmətinə söz ola bilməz. Əgər onunla birlikdəsinizsə, ən yaxşı və keyfiyyətli məkanlara gedəcəyinizdən şübhəniz olmasın. Ən sıxıntılı vaxtlarında belə irəli çıxmağı bacarır. Çox diqqətlidir, təyin olunan görüşlərə gecikməyi sevmir. Əzmkar və çalışqandır. Hər hansı bir söhbət əsnasında, onun özünə arxayın tonda çıxış etməsi sizi təəccübləndirməsin. Sadəcə, bunu bilin ki, o, öz ağlına və fəhminə güvənən adamdır. Soy-kökünə bağlı, adət-ənənələrə sədaqətlidir…

**Elman Eldaroğlu,**
**jurnalist**

Orxan Fikrətoğlu əsərlərində, əsasən, insanlığa, insanlığın gələcəyi olan gənc nəslə səslənir və onlara düzgün yol göstərməyə çalışır. Ağıllı, dərin düşünən, düzgün yol seçən, Vətənini, millətini, özünü dərk edib sevən bir nəsil xəyal edir.

**Sürəyya Nağılı,**
**yazıçı**